# PEDİATRİK PATOLOGİYALARIN İNKİŞAF MEXANİZMLƏRİ, GENETİK VƏ EPİGENETİK FAKTORLARIN İNTEQRATİV TƏHLİLİ, İNNOVATİV DİAQNOSTİKA VƏ MÜALİCƏ STRATEGİYALARIN OPTİMALLAŞDIRILMASI

*Elmi rəhbər: Prof. Sultanova N.H.*

II UŞAQ XƏSTƏLİKLƏRİ
KAFEDRASI

www.amuchild.az
info@amuchild.az

# AKTUALLIQ

Müasir dövrdə uşaqlarda multisistem patoloji vəziyyətlərin artması, xəstəliklərin erkən yaşlardan başlayaraq xronikləşməsi və uzunmüddətli nəticələrə səbəb olması pediatriyada yeni elmi yanaşmaların işlənməsini zəruri edir [1].

Qlobal epidemioloji dəyişikliklər, perinatal risk faktorlarının çoxalması, allergik, endokrin və kardiometabolik pozuntuların gənc yaşlarda daha geniş yayılması xəstəliklərin formalaşmasını müəyyən edən biomarkerlərin və patofizioloji mexanizmlərin kompleks öyrənilməsinə ehtiyacı artırır [2].

Bu baxımdan inteqrativ yanaşmaların işlənib hazırlanması uşaq sağlamlığının qorunması üçün prioritet istiqamət kimi qiymətləndirilir [3].




*1.Estill J, et al. Global research landscape and burden of disease in pediatrics: Identifying the research gaps to set directions for a new general pediatric journal. Pediatr Discov. 2023 Jun 10;1(1):e2. doi: 10.1002/pdi3.2.*
*2.Feng, Y., et al. Global burden of noncommunicable diseases attributable to modifiable behavioral risks among adolescents and young adults aged 10–24 years, 1990–2021. BMC Med 23, 636 (2025). https://doi.org/10.1186/s12916-025-04463-7*
*3.Hoenders R, et al. A review of the WHO strategy on traditional, complementary, and integrative medicine from the perspective of academic consortia for integrative medicine and health. Front Med (Lausanne). 2024 Jun 11;11:1395698. doi: 10.3389/fmed.2024.1395698*

II UŞAQ XƏSTƏLİKLƏRİ KAFEDRASI
Mərdənov qardaşları, 100
+99412 465 00 00
www.amuchild.az
info@amuchild.az

# MƏQSƏD

Uşaqlarda xəstəliklərinin inkişafında erkən biomarkerlərin, risk faktorlarının və patofizioloji mexanizmlərin rolunu müəyyən etmək və onların erkən diaqnostika, müalicə və proqnozlaşdırmada istifadəsinin elmi əsaslarını formalaşdırmaq



Mərdənov qardaşları, 100
+99412 465 00 00
www.amuchild.az
info@amuchild.az

# VƏZİFƏLƏR

1. Uşaqlarda xəstəliklərinin formalaşmasına təsir göstərən klinik, laborator, genetik və epigenetik risk faktorlarını təhlil etmək.
2. Xəstəliklərin patogenezində iştirak edən əsas patofizioloji mexanizmləri müəyyənləşdirmək.
3. Erkən biomarkerlərin məlumatlılıq səviyyəsini və diaqnostik dəyərini qiymətləndirmək.
4. İnkişaf riskini qiymətləndirən inteqrativ diaqnostik modeli hazırlamaq.
5. Erkən müdaxilə və müalicə strategiyalarının effektivliyini qiymətləndirmək.
6. Proqnozlaşdırma üçün klinik, laborator, instrumental və s. göstəricilərə əsaslanan model təklif etmək.

# ELMİ YENİLİK

1. Pediatrik patologiyanın etiopatogenezində multifaktorial mexanizmlərin yeni inteqrativ modeli təqdim olunacaq. Genetik, epigenetik və ətraf-mühit faktorlarının qarşılıqlı təsirini vahid sistem çərçivəsində qiymətləndirən kompleks yanaşma hazırlanacaq ki, bu da uşaq xəstəliklərinin yaranma və inkişaf proseslərinin daha obyektiv şəkildə izahına imkan verəcək.

2. Tədqiqat çərçivəsində müxtəlif markerlərin qarşılıqlı təsir gücü və klinik dəyəri müəyyənləşdirilib, onların erkən skrininq və diferensial diaqnostikada tətbiqi üçün əsaslar formalaşdırılacaq, xəstəliyin ağırlığına, müalicəyə cavaba və uzunmüddətli proqnoza təsir mexanizmini daha dəqiq şəkildə izah ediləcək.

3.Müasir diaqnostik texnologiyaların pediatrik praktikaya inteqrasiyası üçün yenilənmiş metodoloji baza təklif ediləcək. Bu baza genetik panel testlərinin, epigenetik profilləşdirmənin və biomarker əsaslı düsturların klinik alqoritmlərdə yerini müəyyən edəcək.

4.Pediatrik xəstəliklərin müalicəsində innovativ, hədəf-yonlü strategiyaların optimallaşdırılması üçün yeni konseptual model hazırlanacaq, hansı ki fərdiləşdirilmiş terapiyanın seçilməsini elmi cəhətdən əsaslandıraraq effektivliyin artırılmasına yönəldiləcək.

5.Multidissiplinar yanaşmanın pediatrik patologiyanın idarə olunmasında effektivliyini təsdiq edən yeni nəticələr təqdim olunacaq. Genetiklər, pediatrlar, və digər mütəxəssislər arasında inteqrasiya olunmuş əməkdaşlığın xəstəliklərin erkən aşkarlanmasında və müalicə nəticələrinin yaxşılaşmasında mühüm rol oynadığı elmi şəkildə əsaslandırılacaq.

II UŞAQ XƏSTƏLİKLƏRİ
KAFEDRASI
Mərdənov qardaşları, 100
+99412 465 00 00
www.amuchild.az
info@amuchild.az

# GÖZLƏNİLƏN NƏTİCƏLƏR

1.Pediatrik patologiyaların inkişaf mexanizmlərinə dair genişlənmiş elmi baza formalaşdırılacaq. Genetik, epigenetik və s. faktorların qarşılıqlı təsirini əhatə edən inteqrativ modelin işlənməsi uşaq xəstəliklərinin etiopatogenezi haqqında daha sistemli məlumat əldə etməyə imkan verəcək.

2.Xəstəliklərin erkən aşkarlanması üçün yüksək informativlik daşıyan yeni markerlər müəyyən ediləcək. Bu markerlərin klinik təcrübədə tətbiqi erkən skrininqin dəqiqliyini və proqnostik qiymətləndirməni əhəmiyyətli dərəcədə artıracaq. İnnovativ diaqnostika üsulların pediatrik praktikaya adaptasiyası üçün təkmilləşdirilmiş alqoritmlər hazırlanacaq, bu alqoritmlər diaqnostik proseslərin standartlaşdırılmasına və yanlış diaqnoz hallarının azalmasına töhfə verəcək.

3. Fərdiləşdirilmiş müalicə yanaşmaları üçün klinik cəhətdən əsaslandırılmış yeni tövsiyələr formalaşacaq. Öyrəniləcək xüsusiyyətlərə əsaslanan hədəf-yonlü müalicə strategiyalarının optimal modelləri müalicənin effektivliyinin və təhlükəsizliyinin yaxşılaşmasına imkan verəcək.

4. Multidissiplinar əməkdaşlığın səmərəliliyini artıran yeni inteqrativ klinik yanaşmalar işlənəcək, bu yanaşmalar pediatrik xəstəliklərin təqibini və müalicəsini daha effektiv olmasıbı təmin edəcək.

5. Pediatrik kontingent üçün profilaktik tədbirlərin təkmilləşdirilməsinə dair elmi əsaslandırılmış təkliflər hazırlanacaq. Risk qruplarının daha dəqiq identifikasiyası və erkən müdaxilə imkanları səhiyyə göstəricilərinin yaxşılaşmasına xidmət edəcək.

II UŞAQ XƏSTƏLİKLƏRİ
KAFEDRASI

Mərdənov qardaşları, 100
+99412 465 00 00

www.amuchild.az
info@amuchild.az

# ELMİ-PRAKTİK ƏHƏMİYYƏTİ

1.Pediatrik patologiyaların inkişaf mexanizmlərinin, eləcə də xəstəliklərin formalaşmasında rol oynayan genetik və epigenetik faktorların integrativ analizi uşaqlarda geniş yayılmış xəstəliklərin etiologiya və patogenezinin daha dərin anlaşılmasına imkan verir. Bu yanaşma erkən diaqnostika, risk qruplarının müəyyən edilməsi və fərdiləşdirilmiş müdaxilələrin planlaşdırılması baxımından klinisistlər üçün praktik üstünlüklər yaradacaq.

2.Genetik və epigenetik markerlərin birgə qiymətləndirilməsi xəstəliklərin proqnozlaşdırılmasını dəqiqləşdirərək vaxtında profilaktik tədbirlərin həyata keçirilməsinə şərait yaradacaq.

3.Hədəfə yönəlmiş terapiya üsulları, epigenetik modulyatorlar və biotexnoloji preparatlar kimi innovativ müalicə yanaşmalarının optimallaşdırılması pediatrik xəstələr üçün daha təhlükəsiz və effektiv fərdiləşdirilmiş müalicə protokollarının hazırlanmasına imkan verəcək. Bu, klinik nəticələrin yaxşılaşmasına və səhiyyə sisteminin yükünün azalmasına səbəb olacaq.

4.İnteqrativ tədqiqat yanaşmaları multidissiplinar əməkdaşlığı gücləndirərək, elmi biliklərin klinik praktikaya çevrilməsini sürətləndirəcək və uşaqların ümumi sağlamlıq göstəricilərinin yüksəlməsinə mühüm töhfə verəcək

II UŞAQ XƏSTƏLİKLƏRİ
KAFEDRASI
Mərdənov qardaşları, 100
+99412 465 00 00
www.amuchild.az
info@amuchild.az

**TƏDQİQATIN OBYEKTİ:** Müxtəlif pediatrik patologiyası olan 0-18 yaşlı uşaqlar

**TƏDQİQATIN ÜSULLARI:** Klinik, laborator, instrumental, genetik, rəgəmsal

**AÇAR SÖZLƏR:** Uşaqlar, genetik amillər, epigenetik risk faktorları, kardiorespirator patologiyalar, allergiya, endokrin xəstəliklər, neonatal patologiyalar, qeyri-infeksion xəstəliklər

**TƏDQİQATIN YERİNƏ YETİRİLƏCƏYİ YER:** II uşaq xəstəlikləri kafedrasının klinik bazaları (Tədris-Terapevtik Klinika, Tədris-Cərrahiyyə Klinikası, Ə.Q.Qarayev ad. 2 saylı uşaq klinik xəstəxanası (Respublika Pediatriya Mərkəzi), K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu)

II UŞAQ XƏSTƏLİKLƏRİ
KAFEDRASI

Mərdənov qardaşları, 100
+99412 465 00 00

www.amuchild.az
info@amuchild.az

# MÖVZUYA AID PLANLAŞDIRILAN IŞLƏR, MƏSUL ICRAÇILAR VƏ ICRAÇILAR

**İşin müddəti**
**2026-2030**

II UŞAQ XƏSTƏLİKLƏRİ
KAFEDRASI

Mərdənov qardaşları, 100
+99412 465 00 00
www.amuchild.az
info@amuchild.az

| № | İşin adı | İcra müddət | | İcraçılar |
|---|---|---|---|---|
| | | Başlanma tarixi | Bitmə tarixi | |
| **1.1.** | **İş: Uşaqlarda ürək-damar və tənəffüs sistemi xəstəliklərininin risk amilləri, diaqnostik və terapevtik yanaşmalar, proqnozlaşdırılma imkanları** | **Yanvar 2026** | **Dekabr 2030** | **Məsul icraçı:**<br>**Prof.,t.e.d. Həsənov Ə.Q.** |
| **1.1.1.** | **Mərhələ: Pediatrik təcrübədə anadangəlmə kardioloji patologiya və revmatik xəstəliklərin müalicə prinsiplərinin işlənməsi, yeni korreksiya üsullarının tətbiqi və effektivliyinin qiymətləndirilməsi.** | **Yanvar 2026** | **Dekabr 2026** | **İcraçılar:**<br>**Dos.,t.ü.f.d.Məmmədova S.N.**<br>**Ass., t.ü.f.d.İmanov E.**<br>**Ass. Salamzadə G.Z.** |
| **1.1.2.** | **Mərhələ: Postpandemik şəraitdə kardiorespirator pozulmalarla gedən vəziyyətlərin diaqnostikasına yanaşmalar, MIS-C ilə bağlı diaqnostik və terapevtik üsulların təkmilləşdirilməsi.** | **Yanvar 2027** | **Dekabr 2027** | **İcraçılar:**<br>**Ass., t.ü.f.d.Həsənova N.S.**<br>**Dos.,t.ü.f.d.Hacıyeva Ü.K.**<br>**Ass.,t.ü.f.d.Səfərova İ.A.**<br>**Baş lab., t.ü.f.d. Cəfərova S.M.** |
| **1.1.3.** | **Mərhələ: Azərbaycanda uşaqlarda brusellyozun klinik-epidemioloji xüsusiyyətləri. Mədə-bağırsaq traktı və tənəffüs yollarının patoloji vəziyyətlərinin polisistem təzahürləri, klinik təcrübədə bioetik aspektlər.** | **Yanvar 2028** | **Dekabr 2028** | **İcraçılar:**<br>**Dos., t.ü.f.d.Tağızadə T.Q.**<br>**Dos., t.ü.f.d.Hidayətova L.Ə.**<br>**Dos., t.ü.f.d., Məmmədova F.M.**<br>**Dos.,t.ü.f.d., Hacıyeva Ü.K.** |
| **1.1.4.** | **Mərhələ:**<br>**Anadangəlmə ürək qüsurlu və qazanılmış kardiorespirator patologiyalı uşaqlarda immun statusun və apoptotik proseslərin xüsusiyyətlərinin öyrənilməsi** | **Yanvar 2029** | **Dekabr 2029** | **İcraçılar:**<br>**Ass., t.ü.f.d. Əliyeva T.M.**<br>**Ass. Mansurova S.M.**<br>**Baş lab. Əhmədova S.H.** |
| **1.1.5.** | **Mərhələ: Uşaqlarda poliorqan zədələnmələrin diaqnostikasında biomarkerlərin rolu, qeyri-infeksion xəstəliklərin risk amillərinin öyrənilməsi** | **Yanvar 2030** | **Dekabr 2030** | **İcraçılar:**<br>**Dos.,t.ü.f.d. Məmmədova F.M.**<br>**Baş lab., t.ü.f.d. Hüseynova İ.Y.** |

| | | | | |
|---|---|---|---|---|
| **1.2.** | **İş: Uşaqlarda endokrinoloji patologiyaların və qida allergiyasının epidemioloji xüsusiyyətləri, onların diaqnostika və müalicəsinin təkmilləşdirilməsi.** | **Yanvar 2026** | **Dekabr 2030** | **Məsul icraçı:**<br>**Prof., t.e.d. Qabulov H.H.** |
| **1.2.1.** | **Mərhələ: Pediatrik xəstələrdə allergik sensibilizasiyanın strukturu və xüsusiyyətləri** | **Yanvar 2026** | **Dekabr 2026** | **İcraçılar:**<br>**Dos., t.ü.f.d. Pənahova T.T.** |
| **1.2.2.** | **Mərhələ: Endokrinoloji patologiyanın uşaqlarda gediş xüsusiyyətləri və əsas müalicə yanaşmalarının effektivliyinin qiymətləndirilməsi** | **Yanvar 2027** | **Dekabr 2027** | **İcraçılar:**<br>**Ass., t.ü.f.d.Cəbrayılova G.İ.** |
| **1.2.3.** | **Mərhələ: İnsulinoterapiyanın yeni metodlarının, insulin pomplarının, özünənəzarət üsullarının və şəkərli diabetli uşaqlarda yeni cihazların təsirinin öyrənilməsi** | **Yanvar 2028** | **Dekabr 2028** | **İcraçılar:**<br>**Ass. Novruzov İ.H.** |
| **1.2.4.** | **Mərhələ: Pediatrik təcrübədə qida zülalları ilə bağlı proktokolitin risk faktorlarının tədqiqi** | **Yanvar 2029** | **Dekabr 2029** | **İcraçılar:**<br>**Ass., t.ü.f.d. Eynalova M.K.** |
| **1.2.5.** | **Mərhələ: Müxtəlif uşaqlıq patologiyalarının müalicəsində gen mühəndisliyi əsasında alınmış bioloji preparatların effektivliyinin qiymətləndirilməsi** | **Yanvar 2030** | **Dekabr 2030** | **İcraçılar:**<br>**Ass.Salamzadə G.Z.** |


Mərdənov qardaşları, 100
+99412 465 00 00
www.amuchild.az
info@amuchild.az

| | | | | |
|---|---|---|---|---|
| **1.3.** | **İş: Müxtəlif yaş dövrlərinə xas olan allergik xəstəliklərin patogenetik xüsusiyyətləri, diaqnostik və terapevtik üsullarının tətbiqinin potensial imkanları, defisit vəziyyətlərin patogenetik və genetik əsaslarının aşkarlanması** | **Yanvar 2026** | **Dekabr 2030** | **Məsul icraçı:**<br>**Prof., t.e.d.Sultanova N.H.** |
| **1.3.1.** | **Mərhələ: Uşaqlarda yayılmış allergik xəstəliklərin inkişafında və gedişində bağırsaq mikrobiotasının rolu** | **Yanvar 2026** | **Dekabr 2026** | **İcraçılar:**<br>**Ass., t.ü.f.d.Şıxammədova A.C.** |
| **1.3.2.** | **Mərhələ: Allergik xəstəliklərin gedişində sitokinlərin dəyişiklikləri və onların qiymətləndirilməsi, defisit vəziyyətlərin tənzimlənməsində neyropeptidlərin rolu** | **Yanvar 2027** | **Dekabr 2027** | **İcraçılar:**<br>**Ass., t.ü.f.d. Cəfərova A.O.** |
| **1.3.3.** | **Mərhələ: Müxtəlif yaşlı uşaqlarda allergik patologiyanın müalicəsində patogenetik əsaslandırılmış taktikanın seçilməsi və effektivliyinin qiymətləndirilməsi** | **Yanvar 2028** | **Dekabr 2028** | **İcraçılar:**<br>**Dos., t.e.n. Əfəndiyeva N.Ə.**<br>**Ass. t.e.n. Tağıyeva A.N.**<br>**Dos. t.e.n. Əlibəyova N.C.**<br>**Ass. t.e.n. Ağayeva A.A.** |
| **1.3.4.** | **Mərhələ: Pediatrik təcrübədə kəskin və xronik öskürəyin müxtəlif formalarının açkarlanmasında çətinliklər və onların həllinə yönəldilmiş yanaşmalar** | **Yanvar 2029** | **Dekabr 2029** | **İcraçılar:**<br>**Dos., t.e.n. Kərimova M.** |
| **1.3.5.** | **Mərhələ: Postpandemik şəraitdə uşaqlarda tənəffüs sistemi xəstəliklərinin diaqnostik və proqnostik prediktorlarının optimallaşdırılması** | **Yanvar 2030** | **Dekabr 2030** | **İcraçılar:**<br>**Ass.,t.ü.f.d., İbrahim N.**<br>**Ass. İsmayılov Q.**<br>**Ass.t.e.n. Qənbərova S.T.** |

| | | | | |
|---|---|---|---|---|
| **1.4.** | **İş: Uşaqlarda fiziki və cinsi inkişafın qiymətləndirilməsinə müasir yanaşmalar, Azərbaycan Respublikasında bu göstəricilərin xüsusiyyətləri, endokrinoloji patologiyalar ilə əlaqəsi** | **Yanvar 2026** | **Dekabr 2030** | **Məsul icraçı:**<br>**Dos., t.e.d. Əhmədov G.Ə.** |
| **1.4.1.** | **Mərhələ: Pediatriyada piylənmə probleminin müasir vəziyyəti, diaqnoz və proqnozlaşdırılmada əsas tətbiq edilən prinsiplər** | **Yanvar 2026** | **Dekabr 2026** | **İcraçılar:**<br>**Ass.,t.ü.f.d. Süleymanlı A.A.** |
| **1.4.2.** | **Mərhələ: Şəkərli diabet tip I olan uşaqlarda xəstəliyin patogenezində immunoloji amillərin rolu və diaqnostik taktikanın təkmilləşdirilməsi** | **Yanvar 2027** | **Dekabr 2027** | **İcraçılar:**<br>**Ass., t.e.n. Nəsirova S.M.** |
| **1.4.3.** | **Mərhələ: Qızlarda həqiqi cinsi inkişafın diaqnostikasının müasir aspektlərinin öyrənilməsi** | **Yanvar 2028** | **Dekabr 2028** | **İcraçılar:**<br>**Baş lab, Musayeva A.X.** |
| **1.4.4.** | **Mərhələ: Qızlarda vaxtından əvvəl həqiqi cinsi inkişafın müalicə prinsiplərinin işlənməsində genetik markerlərin əhəmiyyəti** | **Yanvar 2029** | **Dekabr 2029** | **İcraçılar:**<br>**Ass.,t.ü.f.d. Süleymanlı A.A.**<br>**Baş lab, Musayeva A.X.** |
| **1.4.5.** | **Mərhələ: Uşaqlarda fiziki və cinsi inkişafın pozuntularının patogenezində neyropeptidlərin rolu** | **Yanvar 2030** | **Dekabr 2030** | **İcraçılar:**<br>**Ass., t.e.n. Nəsirova S.M.**<br>**Baş lab, Musayeva A.X.** |

| | | | | |
|---|---|---|---|---|
| **1.5.** | **İş: Anadangəlmə inkişaf pozulmaları və perinatal dövrün zədələnmələri olan yenidoğulanlarda patoloji vəziyyətlərin diaqnostika və müalicəsi** | **Yanvar 2026** | **Dekabr 2030** | **Məsul icraçı:**<br>**Prof., t.e.d.Seyidbəyova F.O.** |
| **1.5.1.** | **Mərhələ: Azərbaycanda skrininq proqramının optimizasiyası və "yeni nəsil sekvenləşdirmə" üsulunun rolu** | **Yanvar 2026** | **Dekabr 2026** | **İcraçılar:**<br>**Dos., t.e.d.Hacıyeva N.N.**<br>**Ass., t.e.d.Pənahova N.F.**<br>**Ass.,t.ü.f.d.Dünyamalıyeva H.** |
| **1.5.2.** | **Mərhələ: Bətndaxili lənqimə ilə doğulan uşaqlarda neonatal dövrdə erkən adaptasiyasın pozulmasının xüsusiyyətləri** | **Yanvar 2027** | **Dekabr 2027** | **İcraçılar:**<br>**Dos., t.ü.f.d.Adilova A.İ.**<br>**Dos., t.e.n.Musayev İ.M.**<br>**Ass.,t.ü.f.d.Məmmədova N.M.** |
| **1.5.3.** | **Mərhələ: Yenidoğulanlarda perinatal infeksiyaların diaqnostikasının optimallaşdırılması** | **Yanvar 2028** | **Dekabr 2028** | **İcraçılar:**<br>**Ass., t.ü.f.d.Orucova P.Ə.**<br>**Ass.t.ü.f.d.Axundova A.A.**<br>**Ass., t.ü.f.d. Məmmədova N.V.** |
| **1.5.4.** | **Mərhələ: Yenidoğulanlarda ağciyər patologiyaların erkən diaqnostikasına yanaşmaların təkmilləşdirilməsi** | **Yanvar 2029** | **Dekabr 2029** | **İcraçılar:**<br>**Ass., t.ü.f.d.Muxtarova S.N.** |
| **1.5.5.** | **Mərhələ: Az çəkili körpələrdə poliorqan zədələnmələrin diaqnostikasında biomarkerlərin rolu** | **Yanvar 2030** | **Dekabr 2030** | **İcraçılar:**<br>**Dos., t.ü.f.d.Poluxova A.Ə.**<br>**Ass., t.ü.f.d.Nəcəfova G.T.** |

# DİQQƏTİNİZƏ GÖRƏ MİNNƏTDARAM !

II UŞAQ XƏSTƏLİKLƏRİ
KAFEDRASI

Mərdənov qardaşları, 100
+99412 465 00 00

www.amuchild.az
info@amuchild.az